# 60 illik ömür növrağı





Naxçıvan Dövlət Universitetində universitetin İncəsənət fakültəsinin müəllimi, Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi Rəna Cəfərovanın 60 illik yubileyi qeyd olunub. Yubiley tədbirini giriş sözü ilə fakültənin dekanı, Azərbaycan Respublikasının əməkdar artisti Mübariz Əsgərov açaraq qədim və zəngin tarixə malik Naxçıvanın musiqi tarixindən, mədəniyyət ənənələrindən, regionda mədəniyyət və incəsənətin inkişafına göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, yeni nəsil musiqiçilərin, sənətkarların yetişməsində xüsusi rolu olan təcrübəli, zəngin sənət yolu keşmiş peşəkar sənətkarlardan, pedaqoqlardan biri də Rəna xanım Cəfərovadır. Fəaliyyəti boyu müxtəlif mədəniyyət tədbirlərində konsertmeystr, pianist kimi peşəkar ifası ilə seçilən Rəna xanım bir neçə nəsil tanınmış pianoçuların hazırlanmasında böyük fədakarlıq göstərib. Dekan çıxışının sonunda yubilyarı bir daha təbrik edərək, ona sağlam və mənalı, yeni yaradıcılıq sevincləri ilə dolu uzun ömür azrulayıb.

Fortepiano kafedrasının müəllimi Nazilə Qardaşbəyova Rəna Cəfərovanın həyat və yaradıcılığı haqqında məruzə edib. Mənalı, sənət uğurları ilə zəngin 60 illik bir ömrə xəyali səyahətə aparan məruzədə qeyd olunub ki, 1956-cı ildə ziyalı ailəsində anadan olan Rəna xanım 1964-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə qəbul olur, 11 il Səyyarə Məmmədyarova kimi sənətkar pedaqoqdan ixtisas dərsi alır. 1975-ci ildə buranı bitirən Rəna Cəfərova elə həmin il o zamankı Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Burada Azərbaycan musiqi tarixində Xədicə Qayıbova, nüfuzlu musiqiçi, pedaqoq, metodist, publisist, musiqi redaktoru Kövkəb xanım Səfərəliyeva kimi müəllimlərinin musiqi savadının, sənətkarlıq üslub və səriştəsini müvəffəqiyyətlə mənimsəyir. 1980-ci ildən etibarən ailə həyatı ilə əlaqədar taleyini Naxçıvanla bağlayan Rəna xanım həmin il o zamankı Naxçıvan Orta İxtisas Musiqi Məktəbində pedaqoji fəaliyyətə başlayır. 2001-ci ildən etibarən Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində fəaliyyətə başlayan Rəna xanımın yetirdiyi tələbələr nəinki Naxçıvanda, Azərbaycanın müxtəlif şəhərlərində, müxtəlif musiqi təhsili ocaqlarında, mədəniyyət koollektivlərində çalışır. Rəna xanımın tələbələrinin bu gün onunla çiyin-çiyinə çalışması, möhtəşəm konsertlərdə, dövlət tədbirlərində onunla birgə iştirak etməsi peşəkar müəllim və sənətkar ömrünün fərəh doğuran anlarıdır. Rəna xanımın əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi fəxri adı ilə təltif olunub. Naxçıvanda fortepiano məktəbinin formalaşmasında və təkamülündə xüsusi əməyi olan, tələbələrinin uğurları, tamaşaçı sevgisi ilə fərəhlənən Rəna Cəfərova həm də gözəl insan, mehriban həyat yoldaşı, fədakar ana, əziz nənə kimi sevilir. Məruzəçi təbrikini yubilyara həsr etdiyi şeirlə yekunlaşdırıb.

Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisi, universitetin "Fortepiano" kafedrasının müdiri, professor Səidə Məmmədova, Əməkdar incəsənət xadimi, Bəstəkarlıq kafedrasının müdiri Kamal Əhmədov, Musiqi təlimi kafedrasının müdiri İsmayıl Mürsəlov uzun illər birgə çalışdıqları yubilyar həmkarları haqqında xatirələrini, xoş ürək sözlərini söyləyib onun özünəməxsus sənətkarlıq xüsusiyyətlərindən bəhs ediblər. Tələbələr adından yubilyarı Cahangir Qurbanov təbrik edib.

Yubiley konsertində orkestr alətləri ixtisası üzrə IV kurs tələbəsi Cahangir Qurbanovun rəhbərlik etdiyi kvartet Johann Pechelbelin "Kanon", Fortepiano kafedrasının müəllimi Fəridə Ağayeva Vaqif Mustafazadənin "Düşüncə", Daniil Kramerin "Rəqs edən skripkaçı", fortepiano ixtisası üzrə I kurs tələbəsi Səmənnaz İmanlı Süleyman Ələsgərovun "Rəqs-tokkata", Xalq çalğı alətləri ixtisası üzrə II kurs tələbəsi, qarmonçalan Ələsgər Cəlilzadə Tofiq Qiliyevin "Sən mənim, mən sənin", "Coş dənizim" əsərlərini ifa ediblər. Tarzənlərdən Musiqi təlimi kafedrasının baş müəllimi, Azərbaycan Respublikasının əməkdar artisti Zeynalabdin Babayev və Xalq çalğı alətləri kafedrasının baş müəllimi Vahid Məmmədov Tofiq Bakıxanovun "Görüş yerimiz", Vasif Adıgözəlovun "Şair, nə tez qocaldın sən" əsərləri ilə yubilyarı təbrik ediblər. Solo oxuma ixtisası üzrə birinci kurs tələbəsi İlkin Abdullayevin oxuduğu Tofiq Quliyevin "Zibeydə" və Səid Rüstəmovun "İntizar" mahnıları alqışlarla qarşılanıb.

Sonda Naxçıvan Muxtar Respublikasının əməkdar mədəniyyət işçisi, Fortepiano kafedrasının müəllimi Rəna Cəfərova çıxış edərək yubiley tədbirinin təşkilatşılarına, universitet və fakültə rəhbərliyinə, həmkarlarına, tələbələrə minnətdarlığını bildirib. Rəna Cəfərova anadan olmasının 60 illiyi, səmərəli pedaqoji fəaliyyətinə görə Naxçıvan Dövlət Universitetinin fəxri fərmanı ilə təltif olunub.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*